# Qarabağın sürətli bərpası ölkəmizin həm sülh niyyətini, həm də potensialını göstərir

***İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ən müasir infrastrukturun yaradılması və mədəni-tarixi abidələrin bərpası istiqamətində genişmiqyaslı tədbirlər sürətlə gerçəkləşdirilir. Bu çərçivədə görülən layihələr isə həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsini, həmçinin iqtisadi inkişafını şərtləndirir.***



Onu da qeyd edək ki, ölkəmizin yenilənmiş dövlət büdcəsində artırılan xərclər hesabına yaranan ehtiyat vəsaitlərin yönləndirildiyi istiqamətlər sırasında Böyük qayıdışın sürətlə reallaşdırılması xüsusi yer tutub. Maliyyə Nazirliyinin yaydığı məlumata əsasən, bu ilin ilk yarısında işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası xərcləri üzrə icraçılar tərəfindən verilmiş sifarişlər əsasında 1 milyard 172,4 milyon manat məbləğində (2021-ci ilin eyni dövrü ilə müqayisədə 3,2 dəfə çox) maliyyələşdirmə aparılıb. Beləliklə, həmin göstərici cari ildə sözügedən məqsəd üçün nəzərdə tutulmuş xərclərin 53,3 faizinə çatdırılıb.

Yeri gəlmişkən, gələn ilin dövlət büdcəsi xərclərinin 16 faizinin müdafiə və təhlükəsizlik məsələlərinə, 9 faizinin isə işğaldan azad olunmuş ərazilərin bərpasına yönəldiləcəyi nəzərdə tutulub. Ümumiyyətlə, 2023-cü il ərzində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası xərclərinin 3 milyard manat məbləğində olacağı proqnozlaşdırılıb. Bu xərclərin növbəti ildə dövlət büdcəsi xərclərində xüsusi çəkisinin 9 faiz və ÜDM-də isə xüsusi çəkisinin 2,8 faiz təşkil edəcəyi nəzərdə tutulub.

İşğaldan azad olunmuş şəhər və rayonlarımızın bərpası, “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyaları əsasında yaşayış və qeyri-yaşayış komplekslərinin inşası, bir sözlə, əhalinin dayanıqlı məskunlaşması məqsədilə həmin ərazilərdə nəqliyyat, sosial və biznes infrastrukturlarının yaradılması hazırda dövlət siyasətinin prioritetləri sırasında yer alır. Azərbaycan dövləti bütün bu layihələri öz gücü ilə, öz maliyyə hesabına reallaşdırır. Bu baxımdan 2021-2022-ci illərdə bir sıra layihələrin icrasının başa çatdırılması, o cümlədən Şuşaya gedən Zəfər yolunun salınması, Füzuli və Zəngilan beynəlxalq hava limanlarının istifadəyə verilməsi, Zəngilanda Ağalı kəndinin bərpası, azad olunmuş bütün ərazilərdə ən müasir texnologiyalara və idarəetməyə əsaslanan yarımstansiyaların inşası, dağ çayları üzərində elektrik stansiyalarının tikilməsi Azərbaycanın iqtisadi gücünün ifadəsidir.

***(ardı 3-cü səhifədə)***

# Qarabağın sürətli bərpası ölkəmizin həm sülh niyyətini, həm də potensialını göstərir

***Ermənilər 30 il ərzində torpaqlarımızda oturub bizə meydan oxuyurdular. Dağıdılmış kəndlərin, şəhərlərin vəziyyətinə baxın ki, bizim qarşımızda hansı vəhşilər dayanıb. Azad edilmiş torpaqlarda salamat bina qalmayıb, tarixi abidələrimiz dağıdılıb, məscidlərimiz talan edilib. Onlar hesab edirdilər ki, biz bununla razılaşacağıq. Onlar rayonlarımızın, kəndlərimizin adlarını dəyişdiriblər. Amma onlar Azərbaycan xalqının iradəsini qıra bilmədilər. İşğaldan sonra dünyaya göz açan hər bir azərbaycanlı öz torpaqlarına qayıtmaq arzusu ilə yaşayır. Biz onların arzusunu yerinə yetirəcəyik.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



*(əvvəli 1-ci səhifədə)*

Bütün bunlar, eyni zamanda, azad olunmuş ərazilərin yenidən qurulması ilə bağlı güclü siyasi iradənin olmasının göstəricisidir. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlarımıza mütəmadi səfərləri də göstərir ki, dövlət başçısı bu məsələni xüsusi diqqət və nəzarətində saxlayır.

Bütün bunlar bir daha onu göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafı Azərbaycan dövləti üçün ən prioritet məsələdir. Prezident İlham Əliyev 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədə işğaldan azad olunan ərazilərdə aparılan bərpa-quruculuq işlərindən bəhs edərkən deyib: "Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik".

Dövlətimizin başçısının bu sözləri deməyə əsas verir ki, ölkəmizin zəngin potensial imkanları azad edilən ərazilərin bərpası və yenidən qurulması istiqamətində səfərbər edilib.

Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafında enerji amili həlledici rol oynayır. "Yaşıl" texnologiyaların və "ağıllı" sistemlərin tətbiqi, regionun enerji təminatı ilə bağlı strateji vəzifələr Azərbaycan energetikləri qarşısında yeni vəzifələr və perspektiv fəaliyyət planları müəyyənləşdirir.

İşğaldan azad edilmiş ərazilərin bərpası prosesinin mühüm tərkib hissəsi kimi enerji infrastrukturunun qurulması və enerji təhlükəsizliyinin təmin edilməsinə ilk günlərdən xüsusi əhəmiyyət verilir. Qələbədən dərhal sonra 2020-ci ilin noyabrında yaradılmış Əlaqələndirmə Qərargahı və onun nəzdindəki İdarələrarası Mərkəzin İşçi Qruplarından biri məhz enerji təminatı məsələləri üzrə fəaliyyət göstərir.

Artıq Qarabağ və Şərqi Zəngəzurun əksər ərazilərinin elektrik enerjisi ilə tam təmin edilməsi başa çatdırılıb. Şuşa, Kəlbəcər, Füzuli və Cəbrayılda 110/35/10 kV-luq 5 yarımstansiya istismara verilib, həmçinin bu yarımstansiyaların ölkənin ümumi enerji sisteminə qoşulması üçün elektrik verilişi xətləri çəkilib.

Paylayıcı şəbəkənin qurulması çərçivəsində Şuşa şəhərində 35/10 kV-luq 4 MVA gücündə "Daşaltı" yarımstansiyası tikilərək istismara verilib. Xocavənd, Cəbrayıl və Zəngilan rayonlarında isə 35/10 kV-luq yarımstansiyalarda bərpa işləri aparılıb. Suqovuşan qəsəbəsini elektrik enerjisi ilə təmin etmək üçün 35 kV-luq xətt çəkilib və 35/10 kV-luq "Suqovuşan" yarımstansiyası inşa edilərək istismara buraxılıb.

Ümumilikdə, işğaldan azad olunmuş ərazilərdə 300 kilometrə yaxın müxtəlif gərginlikli hava və kabel xətləri çəkilib, bərpa edilib, xeyli sayda transformatorlar quraşdırılıb.

Həm Qarabağda, həm də Şərqi Zəngəzurda elektrik enerjisi təsərrüfatının qurulması prosesi intensiv şəkildə davam etdirilir. Dövlət başçısının ifadə etdiyi kimi, cəmi 7–8 ay ərzində bu qədər işin görülməsi dövlətin qüdrətini, insanların



əzmkarlığını, eyni zamanda, güclü siyasi iradəni göstərir.

Qarabağ və Şərqi Zəngəzurun bərpasına başlanan vaxtdan bu ərazilər "Yaşıl enerji zonası" elan edilib. Bunun üçün qlobal çağırışlara və müasir inkişaf tendensiyalarına uyğun strateji yanaşma qarşıya mühüm vəzifə kimi qoyulub. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə bu torpaqların enerji təminatında bərpa olunan enerji mənbələrindən maksimum istifadə ediləcəyi, ekoloji təmiz, səmərəli innovativ texnologiyaların tətbiq olunacağı barədə qəti mövqeyini ifadə edib: "Azad edilmiş ərazilər yaşıl enerji zonası olacaq. Əminəm ki, Azərbaycan transformasiyanın nadir təcrübəsini nümayiş etdirərək, Lüksemburqun ərazisindən dörd dəfə böyük olan dağıdılmış ərazini yüksək yaşayış standartlarına malik firavanlıq məkanına çevirəcək."

Bu məqsədlə Yaponiyanın TEPSCO şirkəti cəlb edilməklə "Yaşıl enerji zonası"nın yaradılması üzrə müfəssəl konsepsiya hazırlanıb. Layihə çərçivəsində ərazilərin inkişafı və məskunlaşma variantları üzrə müxtəlif enerji tələbatı və təchizatı ssenarilərinə baxılıb. Eyni zamanda, bu bölgələrdə hidro, günəş, külək, biokütlə, geotermal və digər bərpa olunan enerji potensialının öyrənilməsi, mövcud resurslardan istifadə etməklə külək və günəş enerji stansiyalarının və həmçinin su anbarlarında, kiçik çaylarda su-elektrik stansiyalarının tikilməsi istiqamətində davamlı araşdırmalar aparılıb.

Xatırladaq ki, bu bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur.

Regionun Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas çayları və digər kiçik çayları böyük hidro enerji potensialına malikdir. Həmçinin ilkin təhlillərə əsasən, Kəlbəcərdə günlük 3093 kubmetr, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatlarının mövcud olması ehtimal edilir.

Vətən müharibəsindən ötən iki ilə yaxın bir müddətdə işğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdışın reallaşması üçün mühüm layihələr həyata keçirilir. Zəngilanın Ağalı kəndinin bir qrup sakininin 30 ilə yaxın ayrılıqdan sonra ilk olaraq iyulun 19-da doğma yurduna dönməsi dövlətimizin bu torpaqlara həyatı yenidən qaytarması üçün əzm və qətiyyətindən xəbər verir.

Yeri gəlmişkən, işğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb.

"Ağıllı kənd" layihəsi yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri kimi komponentlər üzrə icra edilib. Ərazidə evlər, qeyri-yaşayış binaları, 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası tikilib. Kəndin enerjiyə olan tələbatının alternativ enerji mənbələrindən əldə edilməsi ilə reallaşıb.

Ağalı kənd meydanında Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzləri təsis olunub.

Bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstərilir. Vətəndaş birbaşa videobağlantı ilə DOST mərkəzlərinin sosial agentinə müraciət edir və müraciəti yerindəcə həll olunur. "Ağıllı kənd" əhalisinin şəhərdə əldə edə biləcəyi bütün xidmətlərə, o cümlədən, dövlət xidmətlərinə rahat çıxışı var.

"Ağıllı kənd"ə qayıtmış sakinləri arasında məşğulluğun təmin olunmasında aqrar sahənin payı böyükdür. Kənddə salınmış intensiv meyvə bağları, heyvandarlıq kompleksi, müasir suvarma sistemləri ilə təchiz olunmuş əkin sahələri Ağalı sakinlərinin davamlı gəlir əldə etməsinə və işlə təmin olunmasına hesablanıb. "Ağıllı kənd" layihəsi çərçivəsində aqrar emal müəssisələrinin inşası burada istehsal olunan məhsulların daxili və xarici bazarlara çıxarılmasına imkan yaradacaq.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən digər bərpa tədbirlərinin də bir qisminə diqqət yetirək. Belə ki, iki ilə yaxın bir müddətdə qədim mədəniyyət paytaxtımız olan Şuşada 28 il ərzində törədilən erməni vandalizminin izlərinin silinməsi istiqamətində genişmiqyaslı quruculuq işlərinə başlanılıb. Şuşaya 101 kilometrlik uzunluğunda "Zəfər yolu" çəkilib. Şuşa şəhərinə gedən ikinci yolun, Əhmədbəyli–Füzuli–Şuşa yolunun inşası da uğurla davam etdirilib. Elektrik təchizatı qaydaya salınıb, qısa vaxtda Füzulidəki "Şükürbəyli" yarımstansiyasından şəhərə 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkilib.

Bütün bunlarla bərabər, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Şuşa qısa müddətdə elektrik enerjisi ilə təmin edilib. Şəhəri müasir elektrik şəbəkəsi ilə təmin etmək üçün hazırlanan plana əsasən 35/04 kVt-luq 6 elektrik yarımstansiyası inşa olunub. Onlardan 1 nömrəli transformator məntəqəsi, həmçinin Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib. Tezliklə digər 3 yarımstansiyanın da tikintisinə başlanılması planlaşdırılıb.

Şuşaya suyun verilməsi də təmin edilib. Bunun ardınca içməli su təchizatı sistemlərinin əsaslı şəkildə yenidən qurulmasına başlanılıb. Kiçik Kirs–Şuşa magistral su kəmərinin 6 kilometrlik hissəsi polad borularla yenidən qurulub, 2 ədəd anbarın tikintisi layihələndirilib.

Şuşa işğaldan azad edildikdən sonra Azərbaycanın böyük şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəlləri əvvəlki yerlərinə - Şuşa şəhər mərkəzi meydanına qaytarılıb. "Xan qızı" bulağı bərpa edilib. Qısa vaxtda Heydər Əliyev Fondu tərəfindən dahi Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində təmir-bərpa və yenidənqurma işləri aparılıb. Görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəli və dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstü qoyulub. Xalq artisti Bülbülün ev-muzeyi bərpa edilib. Qala divarlarında bərpa işləri reallaşdırılıb. Üzeyir Hacıbəylinin ev-muzeyində aparılacaq işlər üzrə layihə hazırlanıb.

Hazırda Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa, Saatlı məscidlərində və Mehmandarovların malikanə kompleksində, Şirin su hamamında, məşhur tarzən Sadıqcanın evində bərpa layihələri icra olunur.

Şuşada şəhər meriyasının binası əsaslı şəkildə təmir edilir və onun yanında yeni konfrans zalı inşa olunur. Burada yaşayış məhəlləsi, yeni teleqüllə, yeni məscid və Daşaltı məscidi, habelə 960 şagird yerlik məktəb, 90 çarpayılıq xəstəxana da sürətlə tikilir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***